


# 2022-ci il üçün Hüquq fakültəsinin Hesabatı

**Təqdim edir: Hüquq fakültəsinin dekanı Zaur Əliyev**

# FAKÜLTƏDƏ FƏALİYYƏT GÖSTƏRƏN MÜƏLLİMLƏR HAQQINDA MƏLUMAT

| | |
|---|---|
| Tam ştat müəllimlər | 49 |
| Yarım ştat müəllimlər | 41 |
| Daxili əvəzçilik üzrə çalışanlar | 15 |
| Kənardan dəvət olunan əvəzçi müəllimlər | 14 |
| Saathesabı qaydada çalışan müəllimlər | 109 |
| **Cəmi:** | **228** |



# MÜƏLLİMLƏRİN YAŞ NİSBƏTİ



# Təhsilalanların sayı

| Təhsilalanların ümumi sayı: | 1 774 nəfər |
|---|---|
| Bakalavriat səviyyəsi üzrə | 1 446 |
| Magistratura səviyyəsi üzrə | 224 |
| Fəlsəfə doktoru proqramı üzrə | 65 |
| Elmlər doktoru proqramı üzrə | 18 |
| Akademik borca görə kontingentdə saxlanılan tələbələrin sayı | 21 |
| CƏMİ | 1 774 |

**Bakalavriatura**

| Kurslar | Tələbə sayı |
|---|---|
| 1-ci kurs | 437 |
| 2-ci kurs | 357 |
| 3-cü kurs | 333 |
| 4-cü kurs | 295 |
| 5-ci kurs | 24 |

**Magistratura**

| Kurslar | Tələbə sayı |
|---|---|
| 1-ci kurs | 119 |
| 2-ci kurs | 105 |

# Təhsil və tədris fəaliyyəti

**Bakalavriatura üzrə ixtisaslar**

- Hüquqşünaslıq

**Magistratura üzrə ixtisaslaşmalar**

- Dövlət hüququ
- Mülki və təsərrüfat hüququ
- Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası
- Dövlət və hüquq nəzəriyyəsi
- Beynəlxalq hüquq
- Transmilli cinayət hüququ
- İnformasiya hüququ
- Kommersiya hüququ
- Avropa hüququ
- İnsan hüquqları
- Dəniz və enerji hüququ
- Tibbi hüquq
- Turizm hüququ
- İdman hüququ
- Əqli mülkiyyət hüququ
- İnzibati hüquq, inzibati proses, iqtisadi və maliyyə hüququ
- Əmək hüququ; sosial təminat hüququ
- Beynəlxalq iqtisadi hüquq
- Ekologiya hüququ
- Vergi hüququ

# Təhsil və tədris fəaliyyəti



# Təhsil və tədris fəaliyyəti

## Son üç il üzrə qəbul ballarının müqayisəli təhlili




| | əyani bakalavr a/b | əyani bakalavr r/b | əyani bakalavr i/b | qiyabi bakalavr a/b | qiyabi bakalavr r/b | magistratura |
|---|---|---|---|---|---|---|
| 2020 | 579 | 521 | 651 | 530 | 330 | 57 |
| 2021 | 572 | 511 | 639 | 533 | 384 | 56 |
| 2022 | 532 | 544 | 624 | 497 | 451 | 56 |

**2022-ci ildə Hüquq fakültəsinə qəbul olan Prezident təqaüdçülərinin sayı** → **10 nəfər**

# 2022-ci il YEKUN DÖVLƏT İMTAHANININ nəticələri barədə (əyani təhsil forması) MƏLUMAT

**Cəmi 199 tələbə**

- İmtahanları müvəffəqiyyətlə verənlər – 194 tələbə
  - Əla (A) – yoxdur
  - Çox yaxşı (B) –16 tələbə
  - Qarışıq (E,D,C) - 178 tələbə
- Akademik borcu olanlar – 5 tələbə

İmtahanda iştirak etməyən 1 tələbə

**Müvəffəqiyyət göstəricisi (müsbət qiymət alanlar)** → **97 %**

# 2022-ci ildə YEKUN DÖVLƏT ATTESTASİYASI KOMİSSİYASINDA müdafiə edən tələbələr haqqında MƏLUMAT
## (bakalavriatura üzrə)

| İxtisasın və ixtisaslaşmaların adı | Ümumi tələbə sayı | Adi qruplar üzrə tələbə sayı | Sabah qrupları üzrə tələbə sayı | Qiyabi təhsil üsrə tələbə sayı | |
|---|---|---|---|---|---|
| | | | | Ümumi əsaslar | Əlavə təhsil |
| Hüquqşünaslıq | 143 | 91 | 29 | 12 | 11 |

**Müdafiə edən tələbələrin nəticələrinin müqayisəsi**




**2022-ci ildə bakalavr təhsil səviyyəsi üzrə fərqlənmə diplomu alan tələbələrin sayı**

**36 nəfər**

**Hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasının tələbələrinin diplom işlərinin müdafiəsi Azərbaycan Respublikasının Baş Prokurorluğunda Azərbaycan Respublikasının Baş Prokuroru, hüquq üzrə fəlsəfə doktoru Kamran Əliyevin sədrliyi ilə keçirilmişdir. Diplom işlərinin əksəriyyəti yüksək qiymətləndirilmiş və tələbələrin müdafiəsi müvəffəqiyyətlə başa çatmışdır.**





# 2021/2022-ci tədris ilində YEKUN DÖVLƏT ATTESTASİYASI KOMİSSİYASINDA müdafiə edən tələbələr haqqında MƏLUMAT MAGİSTRATURA ÜZRƏ

| İxtisasın və ixtisaslaşmaların adı | Tələbənin sayı | Sədr |
|---|---|---|
| **Dövlət və Hüquq nəzəriyyəsi və tarixi; Dövlət hüququ** | 8 nəfər (A) | **Sədr: Səfa Mirzəyev** |
| **Beynəlxalq hüquq; İnzibati hüquq, inzibati proses, iqtisadi və maliyyə hüququ** | 11 nəfər (A) | **Sədr: Fərhad Abdullayev** |
| **Əqli mülkiyyət hüququ; İnformasiya hüququ** | 15 nəfər (14 nəfər A, 1 nəfər gəlmədi) | **Sədr: Kamran İmanov** |
| **Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; Transmilli cinayət hüququ** | 15 nəfər (A) | **Sədr: Xanlar Vəliyev** |
| **Mülki və təsərrüfat hüququ** | 7 nəfər (A) | **Sədr: Toğrul Musayev** |
| **Kommersiya hüququ, Əmək hüququ; Sosial təminat hüququ** | 9 nəfər (A) | **Sədr: Sahil Babayev** |
| **Avropa hüququ** | 9 nəfər (3 nəfər A, 6 nəfər B) | **Sədr: Azər Cəfərov** |
| **Dəniz və enerji hüququ** | 8 nəfər (A) | **Sədr: Əfsər Sadıqov** |
| **İnsan hüquqları; Tibbi hüquq** | 9 nəfər (8 nəfər A, 1 nəfər gəlmədi) | **Sədr: Səbinə Əliyeva** |
| **İdman hüququ; Turizm hüququ** | 6 nəfər (A) | **Sədr: Aytən Mustafazadə** |

**Müxtəlif ixtisaslaşmalar üzrə müdafiə edən magistrantlardan**
**90 nəfər A, 7 nəfər B almışdır.**










# Təhsil və tədris fəaliyyəti

## Təcrübə üzrə əməkdaşlıq edilən qurum və təşkilatlar

### İstehsalat təcrübəsi üzrə (bakalavriatura)

- Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi
- Azərbaycan Respublikası Vəkillər Kollegiyası
- Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı
- Bakı və Sumqayıt şəhərləri üzrə rayon məhkəmələri
- Bakı və Sumqayıt şəhərləri üzrə rayon prokurorluqları
- Bakı və Sumqayıt şəhərləri üzrə rayon icra hakimiyyətləri

### Elmi-tədqiqat təcrübəsi üzrə (magistratura)

- Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi
- Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası
- Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi
- Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
- Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi
- Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı
- Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi
- Bakı Apellyasiya Məhkəməsi
- Bakı İnzibati Məhkəməsi
- Bakı Ağır Cinayətlər Məhkəməsi
- Bakı və Sumqayıt şəhərləri üzrə rayon prokurorluqları

**2022-ci il ərzində Hüquq fakültəsində tədris sahəsində görülən işlər aşağıdakı istiqamətləri əhatə etmişdir:**

- Elmi tədqiqatların aparılması və onlara dəstək göstərilməsi;
- İkili diplom layihələrinin davam etdirilməsi;
- Tədris prosesində beynəlxalq əlaqələrin inkişaf etdirilməsi;
- Tələbələrin tədris prosesinə cəlb edilməsi;
- Hüquqi maarifləndirmə və təbliğat işinin aparılması, tələbələrin vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi;
- Tədris prosesində yeni metodikaların tətbiqi.

| | |
|---|---|
| **Əldə olunmuş nəticələr** | Tədris prosesində beynəlxalq əlaqələrin inkişaf etdirilməsi tələbələrin beynəlxalq təşkilatların təcrübəsindən əyani şəkildə faydalanmasına, tədris prosesində təqdim olunan nəzəri biliklərin təcrübədə tətbiqi metodlarını və qaydalarını öyrənilməsinə şərait yaratmışdır. BMT və onun təsisatları ilə tədris sahəsində əməkdaşlıq layihələri yalnız tələbələr üçün deyil, həm də gənc müəllimlər üçün dayanıqlı bilik mənbəyi kimi mühüm əhəmiyyətə malikdir. |
| | Hüquq fakultəsinin tələbələri üçün BMT-nin resurs mərkəzindən istifadə etmək imkanı yaradılmışdır. Bu, tələbələr üçün BMT-nin müxtəlif təsisatlarının fəaliyyət mexanizmi ilə yaxından tanış olmağa imkan yaratmışdır.<br>Tələbələr üçün, həmçinin Gənclər Fondunun resurs mərkəzindən istifadə imkanı yaradılmışdır. |
| | Müasir dünyada qloballaşma və inteqrasiya prosesləri hüquqşünasların yalnız dövlətdaxili hüquqla məhdudlaşmayıb, beynəlxalq sferada da ixtisaslaşmasını tələb edir. Qeyd olunan açıq dərs və mühazirələr onlara bu sahədə öz bilik və bacarıqlarını artırmağa, gələcəkdə müxtəlif beynəlxalq təşkilatlarda respublikamızı layiqincə təmsil etməyə təkan verəcəkdir. |
| | Magistratura səviyyəsi üzrə tələbələrin BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığında elmi-tədqiqat təcrübəsi keçməsi həmin tələbələrə dissertasiya işlərinin yazılması və elmi tədqiqatın aparılmasında təcrübi biliklərdən istifadə etmək imkanını təqdim etmişdir. |

# Beynəlxalq təşkilatların nümayəndələri ilə tədris sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə keçirilən görüşlər



Avropa Şurasının nümayəndə heyəti və Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) ekspertləri ilə görüş



BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Cənubi Qafqaz üzrə Baş İnsan Hüquqları Müşaviri Vladimir Şkolnikovla görüş



BMT-nin nümayəndə heyəti-rezident əlaqələndirici Vladanka Andreyeva ilə görüş



BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nümayəndə heyəti ilə görüş

# Tədris sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə görülmüş işlər

## Beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilən mühazirələrin təşkili

- Dünya Bankının mərkəzi qərargahının Dövlət sektoru üzrə aparıcı mütəxəssisi, vergi hüququ sahəsində tanınmış beynəlxalq ekspert, Madrid universitetinin professoru Raul Feliks Xunkera Varela tərəfindən “Strengthening DRM From theory to practice” mövzusunda mühazirə





- Beynəlxalq Qızıl Xaç Komitəsinin Şərqi Avropa üzrə regional əlaqələndiricisi, beynəlxalq humanitar hüquq üzrə tanınmış beynəlxalq ekspert PhD A.Kozik tərəfindən “Beynəlxalq Humanitar Hüquq: müasir çağırışlar və çətinliklər” mövzusunda mühazirə





## İkili diplom layihələrinin davam etdirilməsi

### Əsas məqsəd

BMT tərəfindən xalqlar arasında şəbəkə qurmaq üçün vasitələrdən biri də elmi əməkdaşlığın davam etdirilməsidir. Bu kontekstdən ikili diplom layihələrinin rolu əvəzsizdir. Belə layihələr iki fərqli dövlətdə təhsil almaq imkanı təqdim etdiyi üçün müəyyən bir mövzu haqqında daha geniş bilik və bacarıq əldə etməyə şərait yaradır.

Həmçinin, ölkələr və regionlar arasında akademik mobilliyi asanlaşdırmaq məqsədilə 2019-cu ilin noyabrında UNESCO-nun Baş Konfransının 40-cı sessiyasında "Ali Təhsilə dair İxtisasların Tanınması haqqında Qlobal Konvensiya" qəbul edilmişdir ki, bu, Birləşmiş Millətlər Təşkilatının ali təhsillə bağlı qlobal əhatəli ilk hüquqi qüvvəyə malik müqaviləsidir (Konvensiya 2023-cü il martın 5-də qüvvəyə minəcək). Konvensiya ali təhsil sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi prinsiplərini özündə ehtiva edir. Məhz bu baxımdan da, ikili diplom layihələrinin tətbiqi Konvensiyada təşviq olunan beynəlxalq mobilliyin və elmi əməkdaşlığın inkişafına öz töhfəsini verəcəkdir.

İkili diplom proqramları Azərbaycan-Fransa arasında təhsil sahəsində əlaqələrin genişləndirilməsinə, hüquq sahəsində ixtisaslaşmış kadrların yetişdirilməsinə töhfə verəcəkdir.

# İkili diplom layihələrinin davam etdirilməsi

***Bakı Dövlət Universiteti və Qazaxıstanın Əl-Fərabi adına Milli Universiteti arasında imzalanmış ikili diplom proqramı haqqında müqavilə əsasında həyata keçirilən "Dəniz və enerji hüququ" magistratura ixtisaslaşması üzrə ikili diplom proqramı.***

Proqram üzrə ilk buraxılış 2022-ci ildə olmuşdur. Ümumilikdə, 8 magistrant bu proqramı müvəffəqiyyətlə başa vuraraq məzun olmuşdur. Onlardan altısı Bakı Dövlət Universitetinin, ikisi isə Əl-Fərabi adına Qazaxıstan Milli Universitetinin magistrantlarıdır. 16 yanvar 2023-cü il tarixində həmin məzunlara diplomların təqdim edilməsi mərasimi keçirilmişdir. Bu layihənin davam etməsi Azərbaycan və Qazaxıstan hüquq məktəbləri arasında əlaqələrin genişlənməsinə və hər iki dövlət üçün önəmli olan dəniz və enerji hüququnun inkişafına öz töhfəsini verəcəkdir.



# İkili diplom layihələrinin davam etdirilməsi

***Bakı Dövlət Universiteti və Fransanın Lion-2 Universiteti ilə birgə "Əqli mülkiyyət hüququ" magistratura ixtisaslaşması üzrə ikili diplom proqramı.***

Azərbaycanda əqli mülkiyyət üzrə yeni nəsil mütəxəssisləri hazırlamağa imkan verən, ingilis və fransız dillərində aparılan bu proqram ilk fransız-Azərbaycan ikili diplom proqramıdır. Hal-hazırda proqram çərçivəsində 9 magistrant təhsil alır. Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi ilə əldə edilmiş razılığa əsasən, müvafiq proqramda təhsil alan magistrantların bəzi dərslərinin Əqli Mülkiyyət Agentliyində keçirilməsinə başlanılmışdır. Proqram çərçivəsində Fransanın Lion-2 Universitetinin professor-müəllim heyəti tədris prosesinə cəlb olunmuş, tələbələrə xarici kitabxanalardan, elektron bazalardan istifadə üçün şərait yaradılmışdır.



# Tədris sahəsində beynəlxalq əməkdaşlığın tələbələrin aktivliyinə təsiri



İlk olaraq Hüquq fakültəsinin tələbələri, o cümlədən fakültənin SABAH qrupunun tələbələri tərəfindən hazırlanmış insan hüquqları mövzusunda sosial teatr tamaşası təqdim olunmuşdur. BMT-nin Azərbaycandakı nümayəndəliyinin İnsan hüquqları şöbəsinin əməkdaşı tamaşanın ərsəyə gəlməsi üçün tələbələrə istiqamətləndirici təlimlər keçmişdir.

Fakültənin 15 tələbəsinin iştirakı ilə təqdim edilən tamaşada insan hüquqları sahəsində ayrı-seçkiliyin yolverilməzliyi, qadın hüquqları, gender bərabərliyi ilə bağlı maarifləndirici xarakterli məsələlər işıqlandırılmışdır. Tamaşanın əsas süjet xəttinin mahiyyəti ondan ibarətdir ki, bir qız uşağının təhsildən məqsədli şəkildə məhrum edilməsi ilk növbədə onun iradəsinə qarşı edilən qanunsuz aktdır və

bu qanunsuz hərəkətlər şəxsin cəmiyyətdə mövqe tutmasına maneçilik törədir.






"Tələbə tərəfindən tələbə üçün" layihəsi
Tələbələrə debatlarda, yarışlarda və müsabiqələrdə iştirak üçün dəstək göstərilməsi
Hüququn müxtəlif sahələri üzrə dərnəklərin təşkili
Tələbələrin tədris prosesinə cəlb olunması
Müxtəlif simulyasiyaların təşkili
Müxtəlif dövlət orqanları, məhkəmələrin fəaliyyəti ilə tanışlıq səfərlərinin təşkili

**Tələbələrin tədris prosesinə cəlb edilməsi üzrə ən uğurlu layihə**

# “Tələbə tərəfindən tələbə üçün” layihəsi

2022-ci ilin dekabrından etibarən Hüquq fakültəsinin dekanı Zaur Əliyevin təşəbbüsü ilə fakültənin tarixində ilk dəfə olaraq ***“Tələbə tərəfindən tələbə üçün”*** layihəsinin icrasına başlanılmışdır. Layihənin əsas məqsədi təlimçi tələbənin öz biliklərini tələbə yoldaşları ilə bölüşmək və qarşılıqlı şəkildə öyrənməkdir. Təlimlər müddətində tələbələr özlərinin ictimai nitq, hüquqi araşdırma, təqdimat, arqumentləri düzgün müdafiə etmə kimi bacarıqlarını inkişaf etdirəcək, müəyyən edilmiş mövzu barəsində fundamental biliklər əldə edəcəklər.

Layihənin digər istiqaməti xüsusi təlim keçmiş yuxarı kurs tələbələri tərəfindən aşağı kurs tələbələri üçün insan hüquqlarına dair müxtəlif mövzular üzrə interaktiv təlimlərin təşkili ilə bağlı olmuşdur.
İlk təlim 9 dekabr 2022-ci il tarixində "Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə giriş" mövzusu üzrə fərqli kurslardan olan tələbələr üçün keçirilmişdir. Təlim iştirakçıları mözvu ilə bağlı suallar vermiş və müzakirələr aparmışlar. Suallar, əsasən Bəyannamənin Azərbaycan qanunvericiliyinə təsiri, günümüzdə olan aktuallığı, maddələrin təfsiri məsələlərini əhatə etmişdir.





# Tələbələrə debatlarda, yarışlarda və müsabiqələrdə iştirak üçün dəstək göstərilməsi

## Əldə olunmuş uğurlar

## Beynəlxalq müsabiqələr



6-8 iyun 2022-ci il tarixində Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyi tərəfindən təşkil edilmiş Beynəlxalq Humanitar Hüquq üzrə məhkəmə müsabiqəsində Hüquq fakültəsinin tələbələri birinci yerə layiq görülmüşlər.



28 dekabr 2022-cil il tarixində tələbələr ELSA Azərbaycan tərəfindən keçirilən "Avropa İnsan Hüquqları Məhkəməsinin simulyasiyası" yarışmasının qalibi olmuşlar. Komandanın üzvləri eyni zamanda "Ən yaxşı memorial" mükafatına layiq görülmüşlər.

# Tələbələrə debatlarda, yarışlarda və müsabiqələrdə iştirak üçün dəstək göstərilməsi

## Əldə olunmuş uğurlar

### Yerli müsabiqələr







22 noyabr 2022-ci il tarixində Bakı Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatının təşkil etdiyi “Şuşa İli” çərçivəsində fakültələrarası “Dəmir yumruq” adlı “Nə? Harada? Nə zaman?” intellektual bilik yarışında fakültənin tələbələri birinci yeri tutmuşlar.

8 dekabr 2022-ci il tarixində fakültənin tələbələri Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi və Hüquq və İnsan Haqları İnstitutu tərəfindən təşkil edilmiş 10 Dekabr-Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş müsabiqəbə qalib olmuşlar.

29 dekabr 2022-ci il tarixində fakültənin “G-2” komandası Bakı Gənclər Mərkəzində “Yusif Allahverdiyev və partnyorları” Vəkil Bürosunun və DİA Hüquq Klubunun birgə təşkilatçılığı ilə keçirilən Hüquqi Debat Müsabiqəsində qalib olmuşlar.

# Tələbələrimizin beynəlxalq aləmdə tanınması

## Əldə olunmuş uğurlar

Hüquq fakültəsinin 1-ci kurs tələbəsi Azər Seyidli Azərbaycanın Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində (Congress of Local and Regional Authorities) "Gənc Təmsilçi" olaraq Konqresin Strasburqda keçirilmiş 44-cü sessiyasında iştirak etmişdir. O, Konqresin sessiyalarında iştirak edərək ölkəmizi Avropa Şurasının müvafiq strukturunda təmsil etmişdir.
Konqresin 44-cü sessiyasında əsas müzakirə mövzuları gənclərin iştirakı ilə lokal səviyyədə demokratiyanın inkişafı, ətraf mühitin qorunması ilə bağlı regional strategiyalar, Dayanıqlı İnkişaf Məqsədlərinin (SDG) lokallaşdırılması və şəhər və regionların böhranlar zamanı gücləndirilməsi olmuşdur. Azər Seyidli gündəlikdəki mövzular üzrə çıxışlar edərək müzakirələrdə fəal iştirak etmişdir.






Azər Seyidli eyni zamanda **"Yaşam dəyərlərini turizm imkanlarına çevir"** adlı layihəsi ilə **"İdeyanı Reallaşdır 2022"** müsabiqəsinin qalibi olmuşdur.

✓Layihə Azərbaycanın qərb bölgəsində turizmin inkişafına dəstək olmaq, potensial turistlərin cəlb edilməsi, tarixi mədəniyyət abidələrimizin təbliğ edilməsi, bu sahədə əlaqələrin genişləndirilməsi və eyni zamanda gənclərin bu istiqamətə rolunun artırılaraq təşəbbüs qruplarının yaradılmasına təkan verəcək.

## Müxtəlif dövlət orqanları, məhkəmələrin fəaliyyəti ilə tanışlıq səfərlərinin təşkili

Əsas məqsəd tədris prosesində nəzəri biliklərin təcrübi biliklərlə əlaqələndirilməsi, eləcə də tələbələrin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsindən ibarətdir.

Cari dövr ərzində **Hüquq fakültəsi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi** arasında razılaşmaya əsasən, Hüquq fakültəsinin tələbələrinin ədliyyə orqanları və məhkəmələrlə tanışlıq aylığı çərçivəsində tədbirlər təşkil olunmuşdur. Razılaşmaya əsasən, hüquqşünas tələbələrin müntəzəm olaraq Nazirliyin tabeliyində fəaliyyət göstərən qurumların, o cümlədən məhkəmələrin işi ilə yerində tanış olması, ədliyyə orqanları işçilərinin praktiki mühazirələrini dinləməsi nəzərdə tutulmuşdur.



Belə ki, tələbələr əvvəlcədən tərtib olunmuş plan əsasında **Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində, Sumqayıt Məhkəmə Kompleksində, Probasiya Xidmətində, Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsində** olmuş, həmin orqanların fəaliyyəti ilə yaxından tanış olmuşlar. Belə təcrübənin gələcək illərdə də davam etdirilməsi planlaşdırılır.









**Müxtəlif dövlət orqanları, məhkəmələrin fəaliyyəti ilə tanışlıq səfərlərinin təşkili**

Avropa Şurasının və Avropa Komissiyasının birgə təşəbbüsü ilə hər il oktyabr ayının 25-i qeyd edilən "Avropa ədalət mühakiməsi günü" çərçivəsində tələbələr ***Bakı Apellyasiya Məhkəməsində, Yasamal və Nəsimi rayon məhkəmələrində*** keçirilmiş "Açıq Qapı" günündə iştirak etmişlər. Tədbir çərçivəsində tələbələr məhkəmələrin fəaliyyəti, məhkəmə-hüquq islahatları, Azərbaycanın hüquq sistemində həyata keçirilən fundamental dəyişikliklər, məhkəmə hüquq-sisteminin beynəlxalq hüquq normalarına uyğun təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının etibarlı qorunması istiqamətində görülən işlər barədə ətraflı məlumatlandırılmış, habelə məhkəmə icraatında müasir informasiya texnologiyalarının tətbiqinin üstünlükləri, hakimlərin fəaliyyəti, müvafiq infrastrukturun yenilənməsi istiqamətində görülən işlərlə tanış olmuşlar.





# TƏLƏBƏLƏRİN AKTİV FƏALİYYƏTİ

## Tələbə Elmi Cəmiyyəti

**Tələbə Elmi Cəmiyyətinin** 16 üzvdən ibarət olan idarə heyəti tələbələr arasından seçilir və layihələrin təşkilində fakültənin professor-müəllim heyəti və tanınmış praktiki hüquqşünaslarla sıx əməkdaşlıq edir. Əsas fəaliyyət istiqamətləri:

- Tələbə Hüquq Jurnalı;
- Məhkəmə Müsabiqə Cəmiyyəti;
- Hüquq Müzakirə Forumu.

## Tələbə Həmkarlar Təşkilatı

**Tələbə Həmkarlar Təşkilatı** 1 sədr, 2 sədr müavini və 17 nəfər üzvlə birlikdə 21 nəfərlik kollektivdə fəaliyyət göstərir. Təşkilatın tərkibində 5 departament vardır:

- Hüquqi yazı və məqalə;
- İntelektual yarış;
- İctimai əlaqələr;
- İnnovativ təlim və layihələr;
- Layihələrin təşkili və icrası.

## Tələbə Gənclər Təşkilatı

**Tələbə Gənclər Təşkilatının nəzdində** 3 klub fəaliyyət göstərir:

- Hüquqi İntellektual Yarışlar;
- Hüquqi Yazı və Tədqiqatlar;
- Təlimlər və Seminarlar klubu.

Həmçinin, Hüquq fakültəsi dekanlığının dəstəyi ilə Hüquq Fakültəsi Tələbə Gənclər Təşkilatının dərc etdirdiyi, sırf tələbələrin hüquqi mövzularda yazdığı məqalələrin toplandığı **SYO Law Review-Hüquq jurnalı** mövcuddur.

**Müxtəlif simulyasiyaların təşkili**

Simulyasiyaların **əsas məqsədini** tələbələrdə hüquq düşüncəsi və hüquq mədəniyyətinin, normativ hüquqi aktlara müstəqil münasibət bildirmək, mühakimə irəli sürmək və təhlillər aparmaq vərdişlərinin formalaşdırılması, natiqlik bacarıqlarının inkişaf etdirilməsi və tələbələrin normayaradıcılıq prosesinə fəal surətdə cəlb edilməsi təşkil edir.

Cari dövr ərzində Hüquq fakültəsinin tələbələrinin iştirakı ilə "Səhnələşdirilmiş parlament debatı" adlı simulyasiya keçirilmişdir. Tədbirdə "Sosial təhlükəsizlik haqqında" Qanun layihəsi müzakirə edilmişdir.

Bu növ simulyasiyaların növbəti illərdə də müxtəlif formatlarda təqdimatı planlaşdırılır.

**Hüququn müxtəlif sahələri üzrə dərnəklərin təşkili**

Müxtəlif dərnəklərin təşkil edilməsi tələbələrin biliklərinin, müzakirə qaibiliyyətinin inkişaf etdirilməsi **məqsədini** daşıyır.

2022-ci ildə Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrası nəzdində "Cinayət hüququ dərnəyi" təsis edilmişdir. Tələbə və müəllim kollektivi hər ay müxtəlif mövzularla dərnəkdə çıxış edir, müzakirələr aparırlar.

Cinayət Hüququ Dərnəyinin hazırda 80-ədək üzvü var. Üzvlükdə qadınlar 45 %, kişilər isə 55 % təşkil edir. Habelə üzv olanlardan 86 %-i BDU-da, 14 %-i isə digər ali təhsil müəssisələrində təhsil alanlardır. Onlardan 51 % bakalavr, 41%-i magistr təhsil səviyyələrində təhsil alırlar, 8% doktorant  və dissertantlardır, 14 %-i isə elmi-pedaqoji fəaliyyətlə məşğul olanlardır.

# 2022-Cİ İL ÜZRƏ ELMİ GÖSTƏRİCİLƏR

| | Yerli Jurnallarda | Xarici Jurnallarda | İndekslənmiş jurnallarda |
|---|---|---|---|
| Məqalə sayı | 118 | 66 | 30 |
| Tezis sayı | 32 | 12 | - |

| DƏRSLİK | DƏRS VƏSAİTİ | MONOQRAFİYA | PROQRAM |
|---|---|---|---|
| 5 | 4 | 6 | 86 |

| ELMİ SEMİNARLAR | USTAD DƏRSLƏR |
|---|---|
| 36 | 6 |

# Beynəlxalq xülasələndirmə və indeksləşmə sistemlərinə daxil olan elmi məqalələrin sayı



# ELMİ YENİLİKLƏR

Hüquq fakültəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinə "ekosid" və "urbisid" əməllərinin kriminallaşdırılması ilə əlaqədar olaraq 104-1 və 104-2-ci maddələrin əlavə edilməsi haqqında təkliflər hazırlanmış, Fakültə Elmi Şurasının 26 dekabr 2022-ci il tarixli 04 saylı qərarı ilə təsdiq edilmiş və müvafiq olaraq Azərbaycan Respublikasının Milli Məclisinə və Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinə göndərilmişdir.

Bu təkliflərin qəbul olunacağı təqdirdə,

Azərbaycan

**urbisid cinayətini kriminallaşdıran ilk ölkə**

olacaqdır.

# Gənc Alimlər Şurası

11 üzvdən ibarət olan fakültə **Gənc Alimlər Şurası** BDU Elmi Şurasının 05 fevral 2013-cü il tarixli iclası ilə təsdiq edilmiş Gənc Alimlər Şurasının Əsasnmasinə uyğun olaraq fəaliyyət göstərir.

- Gənc alimlər tələbələrin Hüquqi yazı vərdişlərinin formalaşdırılmasında böyük rol oynayır. Bu sahədə mütəxəssislər dəvət edilərək hüquqi yazı ilə bağlı təlimlər təşkil edilir.
- Gənc Alimlər Şurasının üzvlərindən dos. Aytəkin İbrahimova Ali Attestasiya Komissiyasının tövsiyə edilən hüquq jurnallarından biri Azərbaycan hüquq Jurnalının katibi, dosent Əsmər Əliyeva isə elektron platformada yayımlanan İnjuria saytının baş redaktorluğunu həyata keçirir.
- Bundan başqa, üzvlər mütəmadi olaraq tələbələr arasında hüquqi düşüncənin formalaşdırılması istiqamətində təlimlər təşkil edirlər. Şuranın üzvlərindən olan h.ü.f.d. Gülnaz Rzayeva “Elektron dövlət quruculuğu” istiqamətində maarifləndirici xarakterli təlimlər təşkil edir.
- Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının nəzdində yaradılmış Cinayət hüququ dərnəyi buna əyani sübutdur. Belə ki, dərnəkdə mütəmadi olaraq gənc tədqiqatçıların iştirakı ilə seminarlar təşkil edilir.
- Şuranın tədqiqatçılarından olan Şahin Məmmədrzalı isə 2020-2021-ci ildə Beynəlxalq Fulbright programı (ABŞ)  çərçivəsində İllinois Texnologiya İnstitutunun Çikaqo Kent Hüquq fakültəsində post doktoral tədqiqatçı olmuşdur.

**2022-ci ildə müdafiə edən doktorant sayı**

- Fəlsəfə doktorluğu üzrə – 3 nəfər
- Elmlər doktorluğu üzrə – 1 nəfər

**2022-ci ildə elmi dərəcə və elmi ad alanların sayı**

- Fəlsəfə doktoru – 2 nəfər
- Elmlər doktoru – 1 nəfər

**2022-ci ildə Hüquq fakültəsinə qəbul olan xarici vətəndaş magistr sayı**

- 1 nəfər - Rusiya Federasiyası

**2022-ci ildə Hüquq fakültəsinə qəbul olan xarici vətəndaş doktorant sayı**

- 2 doktorant - Rusiya Federasiyası və Türkiyə Respublikası

# Hüquqi maarifləndirmə və təbliğat işinin aparılması, tələbələrin vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi

Hüquq fakültəsində təşkil olunan elmi konfrans, seminarlar və sair bu kimi tədbirlər mərhələli şəkildə təşkil olunur. Bu tədbirlərin keçirilməsində ***əsas məqsəd*** hüquq elminin inkişafı, qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin irəli sürülməsi, eləcə də professor-müəllim heyətinin, doktorantların və tələbələrin informasiya mübadiləsində aktiv iştirakının təmin olunmasından ibarətdir. Fakültənin tədbirlər planının müsbət istiqamətlərindən biri kimi yalnız əcnəbi mütəxəssislərin deyil, eyni zamanda Azərbaycan alimlərinin də tələbələr üçün mühazirə söyləməsinə şərait yaradılması qeyd olunmalıdır. Fakültənin tədbirlər planının müvafiq illər üzrə yenilənməsi ümumilikdə fakültə üzrə elmi mühitin inkişafına imkan verəcəkdir.

| Keçirilmiş ümumi tədbirlərin sayı | Digər qurumlarla birgə keçirilən tədbirlərin sayı |
|---|---|
| **58** | **27** |

| | |
|---|---|
| BDU Hüquq Fakültəsinin rəsmi facebook səhifəsi | https://www.facebook.com/lawfacultybsuofficial/ |

# MƏZUNLAR HAQQINDA



# NƏTİCƏ VƏ TƏKLİFLƏR

- Hüquq fakültəsinin Avropa Şurasının Bakı Ofisi ilə birgə **“Avropa İnsan Hüquqları Konvensiyası-70”** devizi ilə maarifləndirmə kampaniyasına başlamaq barədə razılığa gəlinmişdir. Kampaniya çərçivəsində Avropa Şurasının ekspertlərinin, Avropa İnsan Hüquqları Məhkəməsinin hakimlərinin, o cümlədən fakültənin professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə silsilə təlimlərin keçirilməsi qərara alınmışdır. Eyni zamanda, növbəti mərhələdə tələbələrin və müəllimlərin **Strasburqa təlimlə bağlı səfərlərinin** təşkili ilə bağlı razılıq əldə olunmuşdur. Belə səfərlər Magna Charta Universitatum (Universitetlərin Böyük Xartiyasının) fundamental prinsiplərinin təminatına – coğrafi sərhədlərdən asılı olmayaraq universal bilik əldə olunmasına, müxtəlif mədəniyyətlərin bir-birini tanımasına və inteqrasiyasına xidmət edir.

- **Tədris prosesində beynəlxalq əlaqələrin inkişaf etdirilməsi** Dayanıqlı İnkişaf Məqsədlərinin (Məqsəd 4-Keyfiyyətli təhsil) hədəflərini, UNESCO-nun Qlobal Vətəndaşlıq Təhsili üzrə məqsədlərini rəhbər tutaraq, tələbələrin beynəlxalq təşkilatların təcrübəsindən əyani şəkildə faydalanması, tədris prosesində təqdim olunan nəzəri biliklərin təcrübədə tətbiqi metodlarını və qaydalarını öyrənməsini hədəfləyir. BMT, onun təsisatları, Beynəlxalq Qızıl Xaç Komitəsi və digər təşkilatların nümayəndələri tərəfindən keçirilmiş **açıq mühazirələr** yalnız tələbələr üçün deyil, həm də gənc müəllimlər üçün dayanıqlı bilik mənbəyi kimi faydalı olacaqdır.

- Hüquq fakültəsinin 95 illiyi münasibətilə tədbirlərin keçirilməsi planlaşdırılır. Bu, həm elmi-praktiki konfransın təşkili, həm də tələbələr arasında intellektual yarış və müsabiqələrin təşkil edilməsini əhatə edəcəkdir.

Fakültə üzrə **tədris prosesinin təcrübə ilə əlaqələndirilməsi** tələbələrə nəzəri və empirik biliklərin vəhdətdə təqdim olunmasına xidmət edir. Ədliyyə Nazirliyi ilə razılıq əsasında **"Heydər Əliyev İli"** çərçivəsində əməkdaşlıq həyata keçirilir. Belə ki, "Ulu Öndər Heydər Əliyev və ədliyyənin inkişafı", "Ulu Öndər Heydər Əliyev və məhkəmə-hüquq islahatları" və sair bu kimi mövzularda təlimlərin, konfransların, dəyirmi masaların təşkili və başqa silsilə tədbirlərin icrası nəzərdə tutulmuşdur.

- **Dövlət orqanları və digər qurumlarla, o cümlədən Vəkillər Kollegiyası ilə tədris sahəsində əməkdaşlıq çərçivəsində** tələbələrin müxtəlif vəkil bürolarında təcrübə keçmələri xüsusi qeyd olunmalıdır. Belə təcrübələr nəzəri biliklərin empirik biliklərlə əlaqələndirilməsi məqsədi daşıyır.

- Tədris prosesində yeni metodikaların tətbiqi fakültədə təhsilin keyfiyyət göstəricisini müəyyən edir. Belə ki, tədris zamanı yeni təlim metodlarına üstünlük verilməsi tələbələrin daha keyfiyyətli tədris prosesinə cəlb olunması ilə nəticələnəcəkdir. Eyni zamanda, yeni metodikalarla işləmək bacarığı olmayan kadrlar üçün **"Təlimçilər üçün təlim", "Tədrisin təkmilləşdirilməsi"** kimi fakültədaxili təlimlər təşkil olunmaqla onların da belə müasir metodikalarla çalışmaq qabiliyyəti təmin olunacaqdır.

- Hüquq fakültəsində **tələbələrin asudə vaxtının səmərəli təşkili** həm onların şəxsiyyətinin inkişafına, həm də zərərli vərdişlərdən uzaq olmasına istiqamətlənmişdir. Bu məqsədlə müxtəlif dərnəklərin təşkili və burada aparılan müzakirələrin nəticəsi olaraq hazırlanmış təkliflər qanunvericiliyin təkmilləşdirilməsinə və inkişafına xidmət edir. Növbəti illərdə müxtəlif sosial tədbirlərin keçirilməsi ilə tələbələrin asudə vaxtının səmərəli təşkili işi davam etdiriləcəkdir.